# 4-CÜ MEDAL

**Nəhayət, güləş yarışlarında intizarımızın sonu gəldi, medal ümidimiz gerçəkləşdi. Həm də yunan-Roma güləşində, mübarizənin son günündə.**

Belə ki, avqustun 8-də "Paris-2024"də yunan-Roma güləşində sonuncu mükafatçılar məlum olub. Ölkəmizin güləşin bu növündə sonuncu medal ümidi Həsrət Cəfərov bürünc mükafat uğrunda döşəyə çıxıb.

67 kq çəkidə güləşən Həsrət Cəfərov yarışa 1/8 finaldan başlayıb. Dünya çempionatlarının gümüş və bürünc mükafatçısı Mohamed Elsayedi (Misir) xalçaya çıxmağa peşman edib. Güləşçimiz tam üstünlüklə (9:0) qələbə qazanaraq 1/4 finala yüksəlib. O, ikinci qarşılaşmasında moldovalı Valentin Petiçlə münasibətinə aydınlıq gətirib. Cəfərov bu dueldən də qalib ayrılıb - 3:1.

Pəhləvanımız finala gedən yolda Ukraynanı təmsil edən həmyerlimiz Pərviz Nəsibovla qüvvəsini sınayıb. Görüş 3:3 hesabı ilə yekunlaşsa da, sonuncu xal prinsipinə əsasən rəqib mərhələ adlayıb.

Nəhayət, Həsrət Cəfərov dünən bürünc mükafat uğrunda döşəyə çıxıb. Pəhləvanımızın rəqibi təsəlliverici qarşılaşmada serbiyalı Mate Nemesə qalib gələn qırğızıstanlı Amantur İsmayılov olub.

Görüş idmançımızın inamlı qələbəsi ilə yekunlaşıb - 8:0. Bununla da Həsrət Cəfərov Olimpiadanı bürünc medalla bitirib.



azerbaijan-news.az

Azərbaycan.- 2024.- 9 avqust (№ 168).- S.1.